"Azərbaycan Dövlət Pedaqoji Universitetinin mətbu orqanı"

# GƏNC MÜƏLLİM QƏZETİ



H.Əliyev
"Müəllimlər müəllimi olmaq ikiqat şərəfli və eyni zamanda, ikiqat məsuliyyətli işdir!"

# Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

dekabrın 24-də – doğum günündə Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb.

Görüşdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova və Elmi-təşkilati şöbənin müdiri professor İbrahim Bayramov da iştirak edib.







Avqust ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcmasına çevrilmişdir.



- Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri **tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar.**
- **Xalqımızın tarixi yaddaşı, torpaq həsrəti və Vətən sevgisi** bunu deməyə əsas verir.
- **Biz heç vaxt inamı itirməməliyik.** İnanmalıyıq, addımlar atmalıyıq, fəal olmalıyıq, işləməliyik.

İLHAM ƏLİYEV

REKTORUN 31 DEKABR YENİ İL VƏ DÜNYA AZƏRBAYCANLILARIN HƏMRƏYLİYİ GÜNÜ MÜNASİBƏTİ İLƏ BAĞLI TƏBRİKİ — 2 SƏH.
ADPU-DA ƏMƏKHAQQILAR ARTIRILDI — 2 SƏH.
YENİ MƏZMUNLU TƏHSİLİN ADPU-DA TƏTBİQİNƏ DAİR ELMİ TƏDQİQAT LAYİHƏSİNİN NƏTİCƏLƏRİ TƏQDİM OLUNUB — 3 SƏH.
ADPU KOLLEKTİVİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNİ YAD EDİB — 4 SƏH.
ADPU SABAH QRUPLARININ VƏ ŞƏKİ FİLİALININ KOMANDALARI "SAF 2022"-İN QALİBLƏRİ SIRASINDA — 5 SƏH.
ADPU DAŞKƏND DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALAYIB — 6 SƏH.
FAKÜLTƏLƏRƏ YENİ DEKANLAR SEÇİLİB — 7 SƏH.
ADPU-NUN PROREKTORU ECAR LAYİHƏSİNİN KOMİTƏ SƏDRİ VƏZİFƏSİNƏ SEÇİLİB — 8 SƏH.

*1921-ci ildən təhsilimizin keşiyində...*

Qəzet 1958-ci il, fevral ayının 1-dən etibarən nəşr olunur. | Dekabr, 2022 / № 8 (1118)

## 31 DEKABR – DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN REKTORU, PROFESSOR CƏFƏR CƏFƏROVUN TƏBRİKİ



Hörmətli həmkarlar və dəyərli tələbələr!

Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllim və tələbələrini, bütün əməkdaşlarını 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edir, elmi-pedaqoji fəaliyyətinizdə, doğma universitetimizdəki işlərinizdə, təhsildə və şəxsi həyatınızda yeni-yeni uğurlar arzulayıram.

Yola saldığımız 2022-ci il müasir tarixinin şərəfli dövrünü yaşayan dövlətimizin inkişafı, beynəlxalq mövqelərinin gücləndirilməsi və dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sosial-iqtisadi və hərbi qüdrətinin artırılması sahəsində aparılan siyasət ardıcıl davam etdirilmişdir. Xüsusilə işğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculuq işlərinin geniş vüsət alması dövlətimizin böyük potensialını və xalqımızın əzmkarlığını əyani şəkildə göstərir. Zəngilanın yenidən qurulmuş Ağalı kəndində 30 ildən sonra ilk sakinlərin məskunlaşması, Şərqi Zəngəzur və Qarabağda ikinci səma qapısı – Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Qubadlı, Zəngilan, Ağdam, Laçın və başqa rayonlarda yeni yaşayış komplekslərinin, habelə məktəb binalarının və mühüm infrastruktur obyektlərinin inşasına başlanılması, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın qəbulu və s. həyata keçirilən tədbirlərin geniş miqyasından xəbər verir. 22-23 aprel tarixində Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayının keçirilməsi xalqımızın sıx birliyinin və həmrəyliyinin təzahürü oldu. Azərbaycan dövləti də həmvətənlərimizin və soydaşlarımızın milli-mənəvi birliyinin möhkəmlənməsinə daim xüsusi diqqət yetirir. Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş IX Zirvə görüşündə "Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələri heç vaxt kəsməmələri üçün səylərimizi davam etdirəcəyik" - fikrini səsləndirməsi bütün dünyaya verilən mesaj, habelə dünya azərbaycanlılarının birliyinin gücləndirilməsi sahəsində dövlət siyasətinin yeni mərhələsinin başlanğıcı kimi dəyərləndirilə bilər.

Əziz həmkarlar və tələbələr!

2022-ci il həm də universitetimiz üçün olduqca əlamətdar və yadda qalan oldu. Ötən il ərzində bizim təhsil ocağında bir çox yeniliklərə imza atıldı, müasir kitabxana-informasiya mərkəzi fəaliyyətə başladı, beynəlxalq əməkdaşlığın inkişafı sahəsində əhəmiyyətli layihələr reallaşdırıldı. Xüsusən qardaş Türkiyənin bir neçə aparıcı ali təhsil müəssisəsi ilə ikili diplom və qarşılıqlı elmi-pedaqoji əməkdaşlıq haqqında müqavilələr bağlandı. İrəlidə bizi daha böyük və məsul vəzifələr gözləyir. Qarşıdan həm ölkə ictimaiyyəti, həm də ADPU kollektivi üçün yeniliklər və çağırışlar ili gəlir. Əvvəla, 2023-cü ildə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi bütün Azərbaycanda böyük təntənə ilə qeyd olunacaqdır. Hər birimiz Ulu öndərin ideyalarının layiqli davamçısı kimi, "Heydər Əliyev İli"ndə daha əzmlə çalışmalı, təhsilimizin və ölkəmizin inkişafına öz töhfəmizi verməliyik. 2023-cü ildə həm də Pedaqoji Universitet növbəti akkreditasiya prosesindən keçəcək və qazandığımız uğur sayəsində tədqiqat universiteti olmaq yolunda müəyyənləşdirdiyimiz hədəflərimizə bir addım da yaxınlaşacağıq.

Hörmətli həmkarlar və tələbələr!

Sizin hər birinizi əlamətdar bayramlar münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, yeni təqvim ilində möhkəm cansağlığı, işlərinizdə uğurlar, tələbələrimizə həm də qarşıdan gələn qış imtahan sessiyasında müvəffəqiyyət arzulayıram.

Bayramınız mübarək!

## ADPU-DA ƏMƏKHAQQILAR ARTIRILDI

Dekabrın 29-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Elmi Şurasının 2022-ci il üçün sonuncu iclası keçirilib. İclasda giriş nitqi ilə çıxış edən rektor professor Cəfər Cəfərov universitetdə il ərzində görülən işlər və qarşıdakı hədəflər haqqında danışaraq qeyd edib ki, yola saldığımız il ADPU-da inkişaf ili kimi səciyyələndirilə bilər. İl ərzində ADPU-CVU ikili magistr diplom proqramının ilk buraxılışı keçirildiyi, Kitabxana-İnformasiya Mərkəzi yenidən qurulması, yeni tədris laboratoriyalarının yaradılması, bir neçə əməkdaşın elmlər doktorluğu dissertasiyasını müdafiə etdiyini, Türkiyə ali təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlıq, mübadilə və ikili diplom proqramlarının imzalandığını və s. məsələləri qeyd edən rektor bildirib ki, 2022-ci ildə ADPU-nun publik hüquqi şəxsə çevrilməsi və qarşıdan gələn institusional akkreditasiyaya hazırlıq universitet kollektivinin önündə yeni hədəflər və vəzifələr qoyur.

Rektor Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu yaxınlarda Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşündə Pedaqoji Universitetin alimlərinin də iştirakının tarixi əhəmiyyətinə diqqət çəkərək Qərbi Azərbaycan həqiqətlərinin tanıdılmasında ADPU alimlərinin tədqiqatlarından danışıb, bu istiqamətdə fəaliyyətlərin bütün elmi-pedaqoji kollektiv qarşısında vacib vəzifə olduğunu bildirib.

Prof. C.Cəfərov vurğulayıb ki, bakalavriat və magistratura səviyyələrində yeni ixtisasların yaradılması, tədris proqramlarına yeni yanaşma, qəbul planlarına yenidən baxılması, məzunların məşğulluq məsələləri, eləcə də "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasında aktiv iştirak etmək kimi məsələlər universitetin gələcək fəaliyyətində önəmli xətlərdəndir. Sonra tədris işləri üzrə prorektor dosent Eldar Aslanov "ADPU-nun 2022/2023-cü tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti haqqında" məruzə ilə çıxış edərək bildirib ki, gələn ilin yanvar ayının 5-dən etibarən tələbələrin qış imtahan sessiyasına start veriləcək. Prorektor qeyd edib ki, imtahanların təşkili üçün bütün zəruri hazırlıq işləri görülür, imtahanlarda şəffaflığın və operativliyin təmin edilməsi üçün Apelyasiya Komissiyası və İmtahan Qərargahı fəaliyyət göstərəcək, İctimai Şuranın üzvləri və tələbə təşkilatlarının nümayəndələri imtahan prosesini izləyəcək, habelə sessiya ərzində onlayn tələbə anketi aktiv olacaq.

Daha sonra cari məsələlərin müzakirəsinə keçilib. Rektorun müşaviri Ümid Mehdiyev ADPU-da "Bəxtiyar Vahabzadə" və "Xəlil Rza Ulutürk" adlı təqaüdlərinin təsis edilməsi, Vətən müharibəsi qazilərinin təhsil haqqı borcundan azad edilməsi və











universitetdə əməkhaqqının artırılması haqqında məruzə ilə çıxış edib. Qeyd olunub ki, növbəti təqvim ilindən etibarən ADPU-da əməkdaşların əməkhaqqılarının diferensial yanaşma ilə minimum 10 faizdən başlayaraq artırılması nəzərdə tutulur. Vurğulanıb ki, Pedaqoji Universitetdə əməkdaşların sosial təminatının gücləndirilməsi prioritet məsələdir və son 6 il ərzində orta hesabla maaşların 53,5 faiz artırılması ilə yanaşı əməkhaqqının büdcədə xüsusi payı 90 faizdən 82 faizə qədər azaldılıb.

Sonda məruzələr Şura üzvləri tərəfindən müsbət qiymətləndirilib və təkliflər qəbul olunub.

## PEDAQOJİ UNİVERSİTETDƏ "CIĞIR" TARİXİ ROMANININ TƏQDİMATI KEÇİRİLDİ





Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Tarix və Coğrafiya fakültəsinin Azərbaycan tarixi kafedrasında "Şuşa ili" çərçivəsində Elmi seminar baş tutub. Seminarda yazıçı-publisist Yunus Oğuzun "Cığır" tarixi romanının təqdimatı keçirilib. Tədbirdə fakültə rəhbərliyi, professor-müəllim heyəti və tələbələr iştirak ediblər. Tədbiri açan Azərbaycan tarixi kafedrasının müdiri dosent Naibə Əhmədova Şuşa şəhərinin inşa edilməsinin 270 illiyinə və 44 günlük Vətən müharibəsinə ithaf olunmuş, içərisində 44 günlük Vətən müharibəsində keçdiyimiz tarixi yol, Vətən müharibəsindən sonrakı nailiyyətlər və mədəniyyət paytaxtımız Şuşa şəhərinin tarixindən bəhs edilən əsər haqqında məlumat verib.

N.Əhmədova Yunus Oğuzun həyat və yaradıcılığı haqqında seminar iştirakçılarına məlumat verildikdən sonra professor Xəqani Məmmədov, dosent Şubay Nuruzadə və dosent Zakir Kərimov "Cığır" tarixi romanı haqqında fikirlərini səsləndiriblər. Sonra müəllif Yunus Oğuz tələbələrin suallarını cavablandırıb, iştirakçılara yazıçının "Cığır" romanı hədiyyə edilib.

Sonda "Sözün bitdiyi, həyatın başlandığı yer!" adlı sənədli film nümayiş etdirilib.

# YENİ MƏZMUNLU TƏHSİLİN ADPU-DA TƏTBİQİNƏ DAİR ELMİ TƏDQİQAT LAYİHƏSİNİN NƏTİCƏLƏRİ TƏQDİM OLUNUB





Dekabrın 1-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Müasir təlim texnologiyalarına və beynəlxalq təcrübəyə əsaslanan yeni məzmunlu təhsilin ADPU-da tətbiqi" layihəsi çərçivəsində Elmi-Tədqiqat Mərkəzinin "Mentorluq fəaliyyətinin tətbiqi nəticəsində təhsilin tədqiqata əsaslanan yeni məzmunda təşkili (ADPU-nun Filologiya fakültəsinin nümunəsi əsasında)" mövzusu üzrə apardığı araşdırmanın nəticələrinin təqdimatı keçirilib.

Təqdimat mərasimində ADPU-nun rəhbərliyi, universitetin tədqiqatçıları və müvafiq struktur rəhbərləri iştirak etmişlər. Araşdırmanın əsas məqsədi müəllimlərin praktik bacarıqlarının inkişaf etdirilməsi və tədrisdə tədqiqata əsaslanan təlimin təşkilinə istiqamətləndirilməsinə nail olmaqdır.

Tədqiqatın əsas vəzifəsi qabaqcıl beynəlxalq təcrübənin və yeni təlim texnologiyalarının tətbiqi məsələlərinin araşdırılması əsasında ADPU-da tədris prosesinin təkmilləşdirilməsinə töhfə verməkdir.

Layihə çərçivəsində beynəlxalq təcrübənin öyrənilməsi üçün Türkiyə universitetlərində (Hacəttəpə və Qazi universitetlərində filologiya ixtisasları üzrə pedaqoji kadr hazırlığına dair) və ADPU-nun Filologiya fakültəsində tədris üzrə mövcud vəziyyət təhlil edilmişdir. Bu məqsədlə nərkəzin tədqiqatçıları Hacəttəpə və Qazi Universitetlərində elmi ezamiyyətdə olmuş, ADPU-da dəyirmi masalar təşkil olunmuş, tədris planları, fənn proqramları, sillabuslar, elmi-tədqiqat işləri araşdırılmış, kafedralarda professor-müəllim heyətinin və tələbələrin fikirlərinin öyrənilməsi məqsədilə sorğular keçirilmiş, mühazirə və seminar dərslərinin müşahidələri aparılmışdır. Türkiyənin təcrübəsi və yerli təcrübə müqayisəli şəkildə təhlil olunmuşdur. Ehtiyaclara dair nəticələr müəyyənləşdirilmiş və qiymətləndirilmişdir. Pedaqoji yönümlü, tədqiqata əsaslanan və həyatla əlaqəlilik prinsipinə malik məzmunun tətbiq edilməsi məqsədilə professor-müəllim heyəti üçün təlimlər keçirilmişdir. Layihənin yekunlarına dair metodik vəsait hazırlanmışdır. Təqdimatın yekununda rektor professor Cəfər Cəfərov tədqiqat işinin universitetdə keyfiyyət yenilənmələrinə dəstək baxımından əhəmiyyətini vurğulayaraq, bu kimi tədqiqatların bütün strukturlarda sistemli şəkildə aparılmasını tövsiyə edərək, beynəlxalq təcrübənin öyrənilməsi yolu ilə tədrisdə təkmilləşdirmə işlərinin vacibliyini qeyd edib.

# ADPU ƏMƏKDAŞLARI ALİ TƏHSİLDƏ KEYFİYYƏT TƏMİNATI ÜZRƏ BEYNƏLXALQ TƏDBİRDƏ



Bakı Biznes Universiteti(BBU) tərəfindən Erasmus+ proqramı çərçivəsində 21-25 noyabr tarixlərində ali təhsildə keyfiyyət təminatına dair beynəlxalq tədbir keçirilmişdir. Tədbirin məqsədi BBU-nun tərəfdaşı olan xarici ölkələrin ali təhsil müəssisələrinin, o cümlədən, İngiltərə, İsveç, İspaniya, İtaliya, Türkiyə və Polşa universitetlərində keyfiyyət təminatında mövcud olan təcrübələrin Azərbaycanın ali təhsil müəssisələrinə ötürülməsidir.

Tədbirdə Azərbaycan Dövlət Pedaqoji Universtetindən (ADPU) Keyfiyyətin təminatı şöbəsinin müdiri dosent Qalib Şərifov, şöbənin mütəxəssisi Qərənfil Məmmədzadə və Tədris Texnologiyaları şöbəsinin müdiri Leyla Əliyeva iştirak etmişdir.

Tədbirin ilk günündə "Keyfiyyət təminatının ali təhsildə rolu", "Jaen Universitetinin keyfiyyət təminatı sistemi", "İspaniya planlaşdırma və qiymətləndirmə sistemi", "Tuscia Universitetində daxili keyfiyyət təminatı sisteminin qurulması və icrası", "Keyfiyyətin təmin olunmasında özünüqiymətləndirmə fəaliyyətinin mahiyyəti və faydaları", "Polşa universitetləri təcrübəsində tədrisin keyfiyyətinin təmin edilməsi mexanizmləri və tədris prosesinin qurulması" mövzularında təqdimatlar edilmişdir. Təlimlərin növbəti günlərində isə xarici tərəfaşlar tərəfindən təhsil proqramı üzrə komitələrin funksiyaları, pofessor-müəllim heyətinin qiymətləndirilməsi, dekanların keyfiyyət təminatında rolu, strateji planlama, daxili audit, məmnunluq sorğularının keçirilməsi kimi mühüm əhəmiyyət kəsb edən istiqamətlərdə təcrübə mübadilələri aparılmışdır.

# ADPU-DA İNSTİTUSİONAL AKKREDİTASİYA İLƏ BAĞLI MÜNTƏZƏM TƏLİMLƏR KEÇİRİLİR

2023-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) institusional akkreditasiya həyata keçiriləcək. Bununla bağlı universitetin Elmi Şurasında müzakirələr aparılıb və akkreditasiyaya hazırlıq üzrə təşkilat komissiyası yaradılıb. Təşkilat komissiyası və Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) ilə razılaşmaya əsasən, komissiyanın üzvləri və müvafiq struktur rəhbərləri üçün akkreditasiyaya hazırlıq və universitetin özünütəhlil hesabatının hazırlanmasına dəstək məqsədi ilə müəyyən olunmuş qrafik üzrə Agentlik tərəfindən təlimlər həyata keçirilir.





Dekabrın 2-də keçirilən növbəti təlimdə TKTA-nın Təlim və metodologiya şöbəsinin müdiri Asiman İlyasov özünütəhlil hesabatlarının hazırlanması zamanı istifadə olunan əsas meyarlarla iş və qiymətləndirmə prosesi haqqında ətraflı təqdimat edərək prosesə bağlı sualları cavablandırıb. ADPU-nun rektoru professor Cəfər Cəfərov qeyd edib ki, Universitet institusional akkreditasiya prosesinə növbəti strateji hədəflərinə doğru irəliləmək yolunda vacib indiqator kimi baxır və bu göstərici Pedaqoji Universitetin tədqiqat univeristetinə çevrilməsi yolunda əhəmiyyətli mərhələ təşkil edir.

# ƏHMƏD CAVADIN 130 İLLİYİNƏ HƏSR OLUNMUŞ ƏDƏBİ-BƏDİİ GECƏ KEÇİRİLİB




Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), Quba Rayon İcra Hakimiyyəti (RİH) və ADPU-nun Quba filialının birgə təşkilatçılığı ilə filialın akt zalında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavadın 130 illik yubileyinə həsr olunmuş "Yol ver türkün bayrağına!" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə ADPU-nun rəhbərliyi, Filologiya fakültəsinin əməkdaşları, Quba RİH-in məsul şəxsləri, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ADPU-nun Quba filialının rəhbərliyi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları şöbəsinin müdiri professor Məmməd İracoğlu, tanınmış şair Ramiz Qusarçaylı, yazıçı, tərcüməçi və publisist, Əhməd Cavad irsinin tədqiqatçısı Ülviyyə Tahir, Bakı Dövlət Universitetinin (BDU) alimləri, Quba şəhər 4 saylı məktəbin direktoru Gülnarə Niftəliyeva, Quba Fizika-riyaziyyat və informatika təmayüllü liseyin direktoru Kamran Alıyev, şəhid ailələrinin üzvləri, - Tünzalə Abduləlimova, Faiq Abduəlimov, Zümrüd Əliyeva, Rəsmiyyə Qocayeva, Elnarə Abbasova, Nizami Abbasov, rayon ictimaiyyətinin nümayəndələri və filialın kollektivi iştirak edib. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. ADPU-nun Quba filialının Ədəbiyyat və dillər kafedrasının müəllimi f.ü f.d Aytən Qurbanova tədbiri açıq elan edərək, Əhməd Cavadın həyatı və yaradıcılığı ilə bağlı məlumat verib. Qeyd olunub ki, şair 1922-1927 ci illərdə Azərbaycan Ali Pedaqoji İnstitutunun (indiki ADPU) Tarix və filologiya fakültəsində ali təhsil alıb. Filial tələbələrinin ifasında şairin "Gəldim Gəncəyə", "Yuxuma gəlmişdin", "Yağış tökdü üstümüzə", "Susmaram" və digər şeirləri səsləndirilib, istiqlal şairi Ə.Cavad və ömür-gün yoldaşı Şükriyyə xanımın həyatını əks etdirən səhnəciklər, kompozisiyalar nümayiş etdirilib. Rəsmi hissədə çıxış edən ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, tanınmış şairə, prof. Mahirə Hüseynovaya Quba filialında görülən işləri yüksək qiymətləndirib, tədbir haqqında düşüncələrini bölüşüb. Qeyd edib ki, Azərbaycan xalqının istiqlal mübarizəsinə layiqli töhfələr vermiş vətənpərvər şair Əhməd Cavadın anadan olmasının 130-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin 20 aprel 2022-ci il tarixli Sərəncamdan irəli gələn məsələləri icra etmək borcumuzdur, bu səbəbdən də təşkil edilən tədbirin mənəvi dəyəri də olduqca yüksəkdir. Digər tərəfdən şair həm də ADPU-nun fəxrlə andığımız yüzlərlə görkəmli məzunlarındandır. Çıxış edən Quba RİH başçısının müavini Səidə Abasova, prof. Məmməd İracoğlu, şair Ramiz Qusarçaylı, yazıçı Ülviyyə Tahir istiqlal şairi Əhməd Cavadın həyatının müxtəlif səhifələrindən söz açıb, tədbirin önəmindən danışıblar. Filialın direktoru dosent Yusif Alıyev qonaqlara Azərbaycan ictimai fikir tarixində önəmli yer tutan Əhməd Cavada həsr olunmuş tədbirdə iştirak etdikləri üçün minnətdarlığını bildirərək universitetin ölkənin keyfiyyətli təhsillə yanaşı, regionun ictimai-sosial həyatında da böyük rol oynadığını vurğulayıb. Sonda rayon ictimaiyyəti adından prof. M.Hüseynovaya simvolik xalça hədiyyə edilib. Tədbirin yüksək səviyyədə təşkili və filialın ictimai həyatında yaxından iştirakına görə f.ü.f.d Aytən Qurbanova Fəxri fərmanla təltif olunub.

# ADPU KOLLEKTİVİ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XATİRƏSİNİ YAD EDİB

Dekabrın 9-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ulu Öndərin anım gününə həsr olunmuş dəyirmi masa keçirilib. Tədbirdə universitetin rəhbərliyi, Nərimanov Rayon İcra Hakimiyyətinin nümayəndələri, universitetin müvafiq struktur rəhbərləri, professor-müəllim heyəti və tələbələr iştirak ediblər. Universitet kollektivi tədbirdən öncə Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı üzərinə əklil qoyulub.

ADPU-nun Heydər Əliyev Mərkəzinin müdiri Tahir Süleymanovun moderatorluğu ilə keçirilən dəyirmi masa Ümummilli Liderin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Daha sonra Ulu Öndərin özünün səsləndirdiyi Səməd Vurğunun "Azərbaycan" şeiri ekranda nümayiş etdirilib, ardınca Heydər Əliyevin dəfn mərasimini əks etdirən videoçarx təqdim olunub.

Tədbirdə çıxış edən ADPU-nun rektoru, professor Cəfər Cəfərov qeyd edib ki, gələn il müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Universitetimizin Elmi Şurası noyabrın 22-də əlamətdar yubileyə həsr olunmuş geniş Tədbirlər Planını təsdiq edib. Qarşıdakı dövr ərzində onun icrası istiqamətində universitetin çoxminli kollektivinin və qonaqların iştirakı ilə müxtəlif səpkili tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Ümummilli Liderin ən görkəmli siyasi və dövlət xadimlərindən, nadir şəxsiyyətlərdən biri olduğunu qeyd edən rektor vurğulayıb ki, dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev artıq bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul olunur. C.Cəfərov deyib: "Bu gün Ulu Öndərin ən böyük arzusu reallığa çevrilib: müstəqil Azərbaycan Respublikası postsovet məkanında öz ərazi



bütövlüyünü silah gücünə, hərbi-siyasi yolla bərpa edə bilən ilk və yeganə ölkə olub. Bu gün Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi altında dinamik inkişaf edən, dünya birliyində xüsusi yeri olan layaqətli bir dövlət kimi tanınır. Bugünkü Azərbaycan məhz Heydər Əliyevin görmək istədiyi müstəqil, müasir və qüdrətli Azərbaycandır. Buna görə də bu gün Ulu Öndərin ruhu şaddır". Rektorun çıxışından sonra Heydər Əliyev haqqında sənədli film nümayiş etdirilib. Daha sonra Magistratura və doktorantura şöbəsinin müdiri, s.e.ü.f.d. Rəşad Sadıqov Heydər Əliyevin 1993-2003-cü illərdə formalaşdırdığı və həyata keçirdiyi xarici siyasət kursunun əsas prinsip və istiqamətlərindən söz açıb. "91-lər"in nümayəndələri, universitetin dosentləri Allahverdi Hacıyev və Heydər Hüseynov həm Ümummilli Lider, həm də Yeni Azərbaycan Partiyasının yaradılması prosesi ilə bağlı xatirələrini bölüşüblər.



Tədbirdə iştirak edən Nərimanov Rayon İcra Hakimiyyəti başçısı aparatının şöbə müdirinin müavini Vəfadar Zeynalov anım günü ilə bağlı rayon miqyasında keçirilən tədbirlər barədə məlumat verib.

SABAH qruplarının III kurs tələbəsi, ADPU Təhsil Könüllüləri İctimai Birliyinin sədri Nərgiz Quluzadə Heydər Əliyevin gənclərlə bağlı yürütdüyü uzaqgörən siyasətdən, gənc nəslin fiziki, intellektual və mənəvi inkişafının təmin olunmasına yönəlmiş tədbirlərdən bəhs edib.

Dəyirmi masada Tarix və coğrafiya fakültəsinin tələbələri Nərmin Ələsgərova, Röya Qurbanova və Eltun Kərimovun ifasında Zəlimxan Yaqubun "Böyük ömrün dastanı" poemasından parçalar və Xəlil Rza Ulutürkün "Dədə Heydər - Atatürk" şeiri səsləndirilib.

## İNSTİTUSİONAL AKKREDİTASİYA İLƏ BAĞLI GÖRÜŞLƏR DAVAM EDİR



2023-cü ilin aprel ayında Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) institusional akkreditasiya həyata keçiriləcək. Bununla əlaqədar universitetin Elmi şurasında müzakirələr aparılmış və şuranın müvafiq qərarına əsasən, akkreditasiyaya hazırlıq məqsədi ilə müxtəlif struktur bölmələrini əhatə edən təşkilat komissiyası yaradılmışdır. Bundan başqa, Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən təşkilat komissiyasının üzvləri və müvafiq struktur rəhbərləri üçün akkreditasiyaya hazırlıq və universitetin özünütəhlil hesabatının hazırlanmasına dəstək məqsədi ilə müəyyən olunmuş qrafik üzrə təlimlər təşkil edilir.

Dekabrın 5-də elmi-tədqiqat istiqaməti üzrə müvafiq struktur bölmə rəhbərləri və işçi qrupu ilə növbəti görüş təşkil edilmişdir. Çıxış edən universitetin elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov institusional akkreditasiya prosesinin əhəmiyyətindən, universitetin elmi-tədqiqat strategiyasından danışmış və Elmi şurada bununla əlaqədar təqdim edilmiş təqdimatlar əsasında qəbul olunmuş qərarı yenidən diqqətə çatdırmışdır.

Keyfiyyətin təminatı şöbəsinin müdiri dosent Qalib Şərifov özünütəhlil hesabatlarının hazırlanması zamanı istifadə olunan əsas meyarlarla iş və qiymətləndirmə prosesi haqqında məlumat vermiş və işçi qrupun müvafiq istiqamət və onlara uyğun göstəricilər ilə bağlı suallarını cavablandırmışdır. Daha sonra işçi qrup arasında müvafiq iş bölgüsü aparılmış və cari vəziyyət müzakirə olunmuşdur.

## ADPU-DA FİKRƏT ƏMİROVUN 100 İLLİYİ MÜNASİBƏTİ İLƏ KONSERT KEÇİRİLİB



Dekabrın 6-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) İncəsənət və fiziki tərbiyə fakültəsində musiqi müəllimliyi ixtisasında təhsil alan tələbə və müəllimlərin iştirakı ilə görkəmli Azərbaycan bəstəkarı, ictimai xadim, AMEA-nın müxbir üzvü, dövlət mükafatları laureatı Fikrət Əmirovun anadan olmasının 100 illiyinə həsr olunmuş konsert proqramı təşkil edilib.

Açılış nitqi ilə çıxış edən Musiqi və onun tədrisi texnologiyası kafedrasının müdiri professor Zemfira Abdullayeva Fikrət Əmirovu Azərbaycan bəstəkarlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri, milli musiqimizin tarixinə parlaq səhifələr yazmış dahi sənətkar kimi səciyyələndirərək, bəstəkarın yaradıcılığı haqqında dinləyicilərə qısa məlumat verdi. Konsertdə bəstəkarın fortepiano, tar, klarnet üçün bəstələdiyi instrumental əsərlər, "Sevil" operasından, "Min bir gecə" baletindən parçalar, dram tamaşalarına və kinofilmlərə yazdığı musiqi nümunələri səsləndirildi. Konsert F.Əmirovun "Odlar ölkəsi" xorunun sədaları ilə sona çatdı.

## ADPU TƏLƏBƏLƏRİ TİBB UNİVERSİTETİNİN ANATOMİYA MUZEYİNDƏ PRAKTİK DƏRS KEÇDİ




Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) İbtidai təhsil fakültəsinin tələbələri "Uşaq anatomiyası, fiziologiyası və gigiyenası" fənni üzrə növbəti dərsini Azərbaycan Tibb Universitetinin (ATU) "İnsan anatomiyası və tibbi terminologiya" kafedrasının nəzdində olan muzeydə keçiblər.

Fənn müəllimi Səadət Qəmbərovanın rəhbərliyi ilə keçirilən praktik dərsdə ATU-nun "İnsan anatomiyası və tibbi terminologiya" kafedrasının müəllimi Ramilə Babayeva muzeydə olan çoxlu sayda uşaq orqanizminə aid eksponatlar haqqında ingilis dilində informasiya verib.

Əyani formada tədrisin aparılması, keçilən nəzəri materialların daha yaxşı mənimsənilməsi və təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsi məqsədi ilə dərsdə İbtidai təhsil fakültəsinin dekan müavini Afət Həsənova da iştirak edib.

## ADPU-DA GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNƏ DAİR RESPUBLİKA ELMİ KONFRANSI KEÇİRİLİB



Dekabrın 9-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Məktəbəqədər təhsil fakültəsində "Vətən müharibəsi kontekstində gənclərin vətənpərvərlik tərbiyəsinin aktual problemləri" mövzusunda Respublika elmi konfransı keçirilmişdir.

Plenar iclasda Məktəbəqədər təhsil fakültəsinin dekanı dosent Nailə Hüseynova, Ümumi psixologiya kafedrasının müdiri professor Ramiz Əliyev, Məktəbəqədər təhsil kafedrasının müdiri professor Müseyib İlyasov çıxış edərək Vətən müharibəsinin Azərbaycan gəncliyinin yüksək vətənpərvərlik duyğularının təzahüründə dönüş nöqtəsi olduğunu qeyd etmişlər. İki bölmə üzrə davam edən konfransda tələbələrlə birgə vətənpərvərlik hissinin aşılanması ilə bağlı müzakirələr aparılıb.

## ADPU TGT SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİB







Dekabrın 8-də Bakı Opera Studiyasında Azərbaycan Dövlət Pedaqoji Universiteti Tələbə Gənclər Təşkilatı (ADPU TGT) və Bakı Musiqi Akademiyası Tələbə Gənclər Təşkilatının (BMA TGT) təşkilatçılığı ilə Sumqayıt Dövlət Universitetinin (SDU) 60 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə ADPU-nun Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin müdiri Turan Kərimli, Nərimanov rayon Gənclər və İdman İdarəsinin rəisi Nəcəf Novruzov, Nəsimi rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev, Səbail rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Xasay Vəliyev, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) əməkdaşları Ülvi Quluzadə və Fidan Həsənova, ADPU TGT-nin sədri Təhmasib İmaməliyev, BMA TGT-nin sədri Nihat Ağayev, SDU TGT-nin sədri Elmin Novruzlu, bir sıra universitet və kolleclərin təşkilat sədrləri və 750-dən çox tələbə iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlanıb, Vətən uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükut ilə yad edilib. Çıxış edən ADPU TGT sədri Təhmasib İmaməliyev ölkənin elmi-intellektual potensialının inkişafına əvəzsiz töhfələr vermiş Sumqayıt Dövlət Universitetinin qabaqcıl beynəlxalq təcrübədən, milli təhsil sisteminin uğurlarından və özünün 60 illik zəngin ənənələrindən bəhrələnməklə təhsildə uğurlu addımlar atdığını, yarandığı vaxtdan etibarən universitetin üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirdiyini, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirdiyini diqqətə çatdırmışdır.

Daha sonra ADPU TGT-nin "Buta" instrumental musiqi ansamblının təqdimatında "Sumqayıt", "Heyratı", "Qarabağ incilləri", "Xudayar təsnifi", "Azərbaycan", "İncə bellim" və "Gilavar" mahnıları ifa olunmuş, Bakı Musiqi Akademiyasının tələbələri tərəfindən "Oxu tar", "Komdenin arzuları", "Ana", "Mən səni araram" "3-cü prelud", "Parafraz", "Skretso", "I will survive" musiqi nömrələri səslənmiş, ADPU TGT-nin "İnci" rəqs qrupunun təqdimatında xalq rəqsi nümayiş etdirilmişdir. Tədbir ADPU TGT-nin "Buta" instrumental musiqi ansamblının təqdimatında "Şur rəngi" mahnısının ifası ilə yekunlaşmışdır.

## ADPU SABAH QRUPLARININ VƏ ŞƏKİ FİLİALININ KOMANDALARI "SAF 2022"-İN QALİBLƏRİ SIRASINDA

5-9 dekabr tarixlərində Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı Ekspo Mərkəzində SAF 2022 – Beynəlxalq STEAM Azərbaycan Festivalı keçirilib.

ADPU-nun Şəki filialının "Xan" komandası Hakaton nominasiyası üzrə yarışmada III yerə çıxaraq bürünc medala yiyələnib. Komandanın rəhbəri filialın baş müəllimi Nuranə Cəbrayılova, üzvləri isə tələbələr Heyran Aslanova və Lalə Məmmədlidir.





ADPU SABAH qruplarının "Genesis" komandası da festivalda Hakaton kateqoriyası üzrə "FirstStep" adlı layihə ilə çıxış edib. Komanda III yerə layiq görülərək bürünc medal ilə təltif olunub. Komandanın tərkibində universitetin riyaziyyat və informatika müəllimliyi ixtisasının V kurs tələbələri Fəridə Qasımova, Mətanət Əhmədova və IV kurs tələbəsi Gülnar Qasımzadə çıxış ediblər.




Qeyd edək ki, STEAM əsaslı tədrisin təşviqi, şagirdlər arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı, rəqəmsal texnologiya biliciləri olan şagird və tələbələrin aşkarlanması, şəbəkələşməsi, eləcə də innovasiyalar və rəqəmsallaşma üzrə beynəlxalq təcrübənin öyrənilməsi məqsədi ilə keçirilən SAF 2022 10 kateqoriya üzrə yarış, həmçinin 1 kateqoriya üzrə innovativ layihələr sərgisi formatında təşkil edilib. SAF 2022-yə ümumilikdə 350 komandadan 1312 nəfər iştirak hüququ qazanıb. Bunlardan 127-i Türkiyə, Böyük Britaniya, İsveç, Estoniya, Özbəkistan, Qazaxıstan və Türkmənistandan olan xarici iştirakçılar, 442-i isə yerli iştirakçılardır.

## ULU ÖNDƏRİN ANIM GÜNÜNƏ HƏSR OLUNMUŞ BİLİK YARIŞI KEÇİRİLİB



Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin anım günü münasibətilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şəki filialında silsilə tədbirlərin davamı olaraq dekabrın 12-də filialın Tələbə Gənclər Təşkilatının İntellektual Oyunlar Klubunun təşkilatçılığı ilə tələbələrarası bilik yarışı keçirilib. Yarış Ulu Öndərin həyatı və çoxşaxəli fəaliyyətini əhatə edən suallar əsasında təşkil edilib. Yarışda filialın müxtəlif ixtisaslarında təhsil alan tələbələrdən ibarət 16 komanda iştirak edib. İki mərhələdə keçirilən yarışda "Xudayar" komandası birinci, "Bayraqdar" ikinci, "Fuego" komandası isə üçüncü yer tutub. Qalib gələn komandaların üzvlərinə müvafiq olaraq I, II və III dərəcəli diplomlar təqdim olunub.

## QOŞULMAMA HƏRƏKATI GƏNCLƏR TƏŞKİLATI PEDAQOJİ UNİVERSİTETDƏ İNFOSESSİYA KEÇİRİB



Dekabrın 9-da Qoşulmama Hərəkatı Gənclər Təşkilatı tərəfindən Azərbaycan Dövlət Pedaqoji Universitetində tələbələr üçün infosessiya keçirilib.

Açılış nitqi ilə çıxış edən ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev sessiyanın keçirilməsinin tələbələr üçün əhəmiyyətini vurğulamış, öz təşəkkürünü bildirmişdir.



Qoşulmama Hərəkatının Gənclər Təşkilatı, onun məqsədi və əhəmiyyəti haqqında tələbələrə məlumat verən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının əməkdaşı Leyla Məmmədzadə və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri Orduxan Qəhrəmanzadə təşkilatla bağlı tələbələrin suallarını cavablandırmışdırlar.

## ELÇİN ŞIXLI İLƏ GÖRÜŞ



ADPU-nun Quba filialında tələbə və müəllim heyətinin istəyini nəzərə alaraq, Azərbaycan Jurnalistlər Birliyinin sədri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Ayna" Mətbu Evinin rəhbəri, Əməkdar jurnalist Elçin Şıxlı ilə "Mənəvi tarazlığı qoruyan adam" mövzusunda görüş keçirilib.

Tədbirdə Elçin Şıxlının yaradıcılığına aid məruzələr dinlənilib, I tədris ili tələbələrinin təqdimatında "Dəli Kür" filmindən fraqment nümayiş olunub, filmdəki "Ana Kürüm" mahnısı tələbələrin ifasında səsləndirilib. O cümlədən, filialın ART incəsənət klubunun üzvləri tərəfindən Elçin Şıxlının portretləri çəkilib, xalq yazıçısı İsmayıl Şıxlının rəsmləri nümayiş edilib. Sonda Elçin Şıxlı tələbə və müəllimlərin suallarını cavablandırıb.

## ŞƏHİD RƏVAN ƏLİYEVİN AİLƏSİ ZİYARƏT EDİLİB




ADPU-nun Quba filialının müəllim və tələbə kollektivi şəhid Rəvan Yusif oğlu Əliyevin ailəsini ziyarət ediblər. Ziyarət zamanı filialın direktoru dosent Yusif Alıyevin və filial kollektivinin adından Şəhidin anası Mehriban Əliyevaya qəhrəman anası kimi təşəkkür və minnətdarlıq məktubu təqdim edilib. Görüş zamanı müəllim və tələbələr şəhidin ev muzeyi ilə yaxından tanış olub, adına ucaldılan bulaq kompleksini ziyarət ediblər. Qeyd edək ki, Rəvan Əliyev 27 may 2001-ci ildə Sumqayıt şəhərində anadan olub. 5 iyul 2019-cu ildə hərbi xidmətə başlayıb. Vətən müharibəsi başlayanda Rəvan qulluq etdiyi hərbi hissədən bir zabit və altı əsgər ilə birlikdə müharibəyə könüllü olaraq qoşulub. Zəngilan uğrunda gedən döyüşlər zamanı, 23 oktyabrda yeddi könüllü əsgərin hamısı şəhid olub. Onlar Vətən müharibəsində Sərhəd Qoşunlarının ilk şəhidləri olublar. 29 oktyabr 2020-ci ildə Quba Şəhidlər Xiyabanında dəfn olunub. Rəvan Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilib.

## HEYDƏR ƏLİYEV İRSİ VƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ



Dekabrın 15-də ADPU-da "Davam" Gənclər Hərəkatı ilə birgə "Heydər Əliyev irsi və müasir Azərbaycan gəncliyi" adlı konfrans keçirilib. Konfrans Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və vətən uğrunda şəhid olan qəhrəmanlarımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Açılış nitqi ilə çıxış edən ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru professor Fikrət Rzayev qeyd edib ki, gələn il Ulu Öndərin anadan olmasının 100 illiyi bütün ölkədə böyük təntənə ilə qeyd olunacaq. O diqqətə çatdırıb ki, 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olunub və bununla bağlı tədbirlər planı təsdiq edilib. Müvafiq olaraq Universitet Elmi Şurasında "Heydər Əliyev İli" ilə bağlı ADPU-nun tədbirlər planı da təsdiq olunub və plana uyğun olaraq universitetdə, onun filiallarında silsilə tədbirlər keçiriləcək. Prorektor vurğulayıb ki, elm və təhsilə, xüsusən müəllimlik peşəsinə böyük önəm verən Heydər Əliyev 5 dəfə Pedaqoji Universitetdə olub. Ulu Öndərin ali təhsil müəssisələrindəki çıxışlarının proqram xarakteri daşıdığını diqqətə çatdıran prof. F.Rzayev deyib: "Bu gün də Heydər Əliyevin müəllimliklə, məktəblə bağlı tövsiyələri əsasında təhsilin inkişafı istiqamətində ölkə rəhbərliyi tərəfindən ardıcıl siyasət həyata keçirilir, ən ucqar bölgələrdə belə yeni tipli təhsil müəssisələri yaradılır. Yeni məktəblər həm də yeni şüurlu müəllimlər tələb edir. Biz bu istiqamətdə var gücümüzlə çalışırıq və aparılan sistemli işlərin nəticəsində bu gün müəllimlik peşəsinin nüfuzu yenidən artıb. Artıq pedaqoji ixtisasların qəbul balları digər prestijli ixtisasları üstələyir, cari ildə ADPU-nun qəbul planı tamamilə dolub."

Ulu Öndərin hərtərəfli milli dövlət quruculuğundan danışan professor deyd edib ki, sovet dövründə məhz H.Əliyevin təşəbbüsü ilə hərbi liseylə yanaşı Pedaqoji Universitetdə gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi ixtisası açılmışdı ki, bu da öz bəhrəsini I Qarabağ və Vətən müharibələrində göstərdi. Prorektor ADPU-da bu gün də mövcud olan bu ixtisasın SSRİ məkanında cəmi 4 ali məktəbdə olduğunu diqqətə çatdırıb. "Davam" Gənclər Hərəkatının İdarə Heyətinin sədri Nihad Allahyarlı bildirib ki, təşkilat davamçılıq prinsiplərini əsas götürərək Ulu Öndərin 100 illiyi münasibəti ilə növbəti il ərzində "100 il" kampaniyasını icra edəcək. Çıxış edən Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Aydın Mirzəzadə qeyd edib ki, hamıdan çox xalqı-millətçi olmaqla yanaşı, hamıdan çox müasir olan Ulu Öndər sovet dönəmindəki fəaliyyəti ilə təhlükəsizlik orqanlarını cəmiyyəti qorxudan orqandan onu qoruyan orqana çevirdi, milliləşdirdi. Onun iradəsi ilə 70-ci illərdə Azərbaycanda 6 universitet, hərbi lisey, yüzlərlə orta məktəb fəaliyyətə başladı.

## ADPU DAŞKƏND DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ İMZALAYIB



Dekabrın 15-də Özbəkistanın Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Firuza İkramxanova, Dünya tarixi kafedrasının professoru və "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru professor Erkin Nuriddinov və mətbuat katibi Nigora Muratova Azərbaycan Dövlət Pedaqoji Universitetini (ADPU) ziyarət ediblər. Nümayəndə heyəti ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova və elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanovla görüşüblər. Görüşdə həmçinin rektorun köməkçisi Riyad Rüstəmli və Beynəlxalq əlaqələr şöbəsinin baş mütəxəssisi Nurəngiz Mahmudova iştirak ediblər. Görüş zamanı ortaq tarixi, dini və dili olan türk dövlətlərinin ali məktəbləri arasında münasibətlərin önəmliliyi vurğulanıb, elmi əlaqələrin qurulması, akademik və inzibati heyətin, tələbə və doktorantların qarşılıqlı mübadiləsi perspektivləri müzakirə olunub. Görüşdə universitetlər arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Daha sonra qonaqlar ADPU-nun Təlim-Tədris Mərkəzinin müdiri p.f.d. Xalidə Həmidova ilə görüşərək mərkəzin fəaliyyəti haqqında məlumatlandırılıblar, universitetin binası, mərkəzləri və auditoriyaları ilə tanış olublar.

## QUBA FİLİALINDA "REGİONLARDA ALİ TƏHSİL: REALLIQLAR VƏ PERSPEKTİVLƏR" II BEYNƏLXALQ ELMİ KONFRANS KEÇİRİLİB



Dekabrın 14-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialının təşkilatçılığı ilə "Regionlarda ali təhsil: reallıqlar və perspektivlər" II Beynəlxalq elmi konfrans keçirilib. Regionlarda ali təhsilin inkişafı, kadr potensialının yüksəldilməsi, qarşılıqlı elmi və beynəlxalq əlaqələrin qurulması, innovasiyasının gücləndirilməsi, təbii-coğrafi şəraitin potensialının istehsalata və praktikaya cəlb edilməsi, habelə alimləri, tədqiqatçıları, dövlət və özəl sektor təmsilçilərini bir araya gətirmək məqsədilə keçirilən konfrans hibrid formada təşkil edilib. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Plenar iclasda giriş nitqi ilə çıxış edən moderator, filialın direktoru dosent Yusif Alıyev ADPU-nun rektoru prof. Cəfər Cəfərovu, konfransda iştirak edən Qırğızıstan Respublikasının elm və təhsil nazirini, yerli və xarici universitetlərin rektorlarını, alimləri və araşdırmaçıları salamlayaraq qeyd etmişdir ki, konfransa Azərbaycan, Türkiyə, Rusiya, İran, Pakistan, Yəmən, Liviya, Əlcəzair, Özbəkistan, Qırğızıstan, Moldovadan 58 məqalə qəbul edilmişdir. Daha sonra giriş məruzəsi ilə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov qeyd edib ki, son 20 ildə Azərbaycan hər sahədə olduğu kimi təhsil sahəsində də böyük uğurlara imza atmışdır. Belə ki, ölkənin pedaqoji kadr hazırlığında ilk sırada yer alan ADPU və onun filialları da bu sahədə bu sahədə xüsusilə fərqlənir. Daha sonra Türkiyənin Qars Kafqaz Universitetinin rektoru prof. Hüsnü Kapu, Moldovanın Tiraspol Dövlət Universitetinin rektoru prof. Eduard Kropseanu, Pakistanın Pəncab Universitetinin Coğrafiya departamentinin direktoru prof. Səfdər Əli Şirazi, Əlcəzairin Bouira Universitetinin dekanı prof. Məhəmməd Celoul Zaadi, Rusiyanın Nijnevartovsk Dövlət Universiretinin rektoru prof. Sergey Qarlov, İranın Təbriz Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri prof. Xəlil Vəlizadə, Yəmənin Ərəb İttifaqı Akademiyasının prezidenti dr. Məhəmməd Əli Əhməd Humran, Özbəkistanın Termiz Dövlət Universitetinin prorektorları dos. Mohirux Xoşimxuyayeva və dos. Obidcan Şafiyev, Dağıstan Dövlət Texniki Universitetinin rektoru dos. Nurməhəmməd Surakatov, Liviyanın Afrika Təhsil Akademiyasının prezidenti dos. Əbdülsəlam Əli Əhməd və ADPU-nun elm və innovasiyalar üzrə prorektoru prof. Azəf Zamanov çıxış edərək konfransın əhəmiyyətindən danışaraq, region universitetlərinin inkişafına dair təklif və proqram xarakterli layihələr təqdim etdilər. Sonra konfrans iki bölmə üzrə onlayn şəkildə işini davam etdirmişdir. Konfransın materialları fiziki və elektron formada dərc ediləcək.

## ŞƏKİ FİLİALININ KOMANDASI DEBAT FORUMUNUN KUBOKUNU QAZANDI



Avropa İttifaqının maliyyə dəstəyi, BMT-nin Əhali Fondu və BMT-nin Qadınlar Agentliyinin təşkilatçılığı ilə həyata keçirilən "Gender əsaslı zorakılıq və ayrı-seçkiliyə qarşı Debat Forumu" layihəsinə yekun vurulub. Layihə çərçivəsində təşkil olunan debat yarışlarında iştirak edən ADPU-nun Şəki filialının tələbələrindən ibarət komanda birincilik qazanaraq kuboka sahib olublar. Eyni zamanda "Ən yaxşı spiker" nominasiyası üzrə filialın II tədris ili tələbələri Əfsanə Əbdürəhimova I, Solmaz Bədəlova isə II yerə layiq görülüb, "Ən yaxşı natiq" nominasiyası üzrə I tədris ili tələbələri Kəmalə Eminova I, Əfsanə Əbdürəhimova II, III tədris ili tələbəsi Nigar Məmmədli isə III yer tutub.

## ŞƏHİD ÖVLADLARI ÜÇÜN ŞƏNLİK TƏŞKİL EDİLİB




Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) SABAH qruplarının tələbələri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə Vətən uğrunda canından keçən şəhidlərimizin əmanətləri olan övladları ilə görüş keçirilib. Təşkil olunan bayram şənliyində uşaqlar tələbələrlə əyləncəli vaxt keçirmiş, müxtəlif oyunlar oynamışlar. Sonda uşaqlara bayram hədiyyələri verilib.

## 28 TƏLƏBƏNİN TƏHSİL HAQQINI GƏNCLƏR FONDU ÖDƏCƏYƏCƏK

Azərbaycan Respublikası Gənclər Fondu (AZGF) tərəfindən elan olunan sosial həssas ailələrdən olan istedadlı tələbələrin təhsil haqqının ödənilməsi üzrə növbəti müsabiqənin nəticələri elan olunub. Gənclərin 2021-2022 və ya 2022-2023-cü tədris illəri üzrə təhsil haqqı xərclərinin qarşılanması məqsədi daşıyan müsabiqənin nəticələrinə əsasən, qalib gələn sosial həssas ailələrdən olan istedadlı gənclər arasında ADPU-nun 28 tələbəsi də yer alır. Onların arasında Quba filialının 4 tələbəsi, Cəlilabad və Şəki filiallarının 3 tələbəsi, Şamaxı və Ağcabədi filiallarının 1 tələbəsi, habelə 1 magistrant var. Seçimlər zamanı müraciətçinin sosial həssas kateqoriyaya aid olmasını təsdiq edən sənədlərlə yanaşı, təhsil göstəriciləri və ictimai fəallığı da əsas götürülmüşdür. Qaliblər sırasında yüksək təhsil göstəriciləri olan Vətən Müharibəsi qaziləri, veteran övladları, valideynlərini itirmiş və valideynləri əlil olan gənclər də yer almışlar.

## "TEXNOLOGİYA GÜNÜ"



Dekabrın 21-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Fizika fakültəsinin təşkilatçılığı ilə "Texnologiya günü" adlı tədbir keçirilib. Universitetin böyük akt zalında keçirilən tədbirdə ADPU rəhbərliyi, fakültə dekanları, professor-müəllim heyəti və tələbələr iştirak edib. "Texnologiya günü"nə həsr olunmuş sərgidə texnologiya müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrin hazırladıqları əl işləri, müxtəlif materiallardan dizayn edilmiş modellər, kulinariya məhsulları nümayiş etdirilib. Vətənimizin azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan bədii hissədə tələbələrin hazırladıqları rəqslər, tamaşalar iştirakçılara xoş təsir bağışlayıb. Vətən müharibəsində igid oğullarımızın qəhrəmanlıqlarını əks etdirən "Qayıdış" səhnəsi xüsusi maraqla qarşılanıb. Tədbir fakültə himninin ifası ilə yekunlaşıb.

## İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASINA HƏSR OLUNMUŞ ELMİ-PRAKTİK KONFRANS



Dekabrın 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Ağcabədi filialında İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş "Azərbaycan pedaqoji fikir tarixində İrəvan Müəllimlər Seminariyasının rolu" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransı giriş sözü ilə açan filialın direktoru dosent Mobil Məcidov İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsinin tarixi əhəmiyyətindən danışaraq, bu təhsil ocağının tarixi varlığını çar Rusiyası dövründə İrəvan quberniyası ərazisində Azərbaycan türklərinin mədəni irsinin mövcudluğunu təsdiqləyən fakt kimi dəyərləndirdi. Sonra seminariyanın fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirildi. Söz məruzəçilərə verildi. Filialın kafedra müdiri, p.ü.f.d. Tahir Kərimli "Azərbaycan pedaqoji fikir tarixində İrəvan Müəllimlər Seminariyasının rolu", baş müəllim, t.ü.f.d. Əlizadə Nəcəfov "İrəvan Müəllimlər Seminariyasının Azərbaycanlı müəllim və məzunları", direktor müavini dosent Seymur Süleymanov "Azərbaycanlı müəllim kadrlarının hazırlanmasında İrəvan Müəllimlər Seminariyasının rolu", direktor müavini dosent Mahir Səlimov "İrəvan Müəllimlər Seminariyasinın Cənubi Qafqazda maarifçiliyin inkişafında rolu", şöbə müdiri b/m. Qərənfil Rzayeva "İrəvan pedaqoji mühiti" və b/m., t.ü.f.d. Anar Kərimli "XIX əsrin sonu - XX əsrin əvvəllərində İrəvanda kitab nəşri, məktəbdarlıq və tanınmış Azərbaycan ziyalıları" mövzusunda məruzə etdilər. Konfransın sonunda ADPU-nun professoru Fərrux Rüstəmovun hazırladığı "İrəvan Müəllimlər Seminariyası və onun məzunları" kitabının təqdimat mərasimi keçirildi.

## "FƏNLƏRİN TƏDRİSİ: RƏQƏMSAL MÜHİT VƏ MÜASİR YANAŞMALAR"



Dekabrın 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Fənlərin tədrisi: rəqəmsal mühit və müasir yanaşmalar" Respublika elmi konfransı keçirilib.

Universitetin müvafiq struktur rəhbərlərinin, kafedra müdirlərinin iştirak etdiyi konfransda açılış nitqi ilə çıxış edən ADPU-nun elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov qeyd edib ki, elmin və texnikanın müasir inkişaf mərhələsində fənlərin tədrisinin metodik əsaslarına yeni yanaşmaların irəli sürülməsi, habelə rəqəmsal təlim vasitələrindən istifadənin elmi-metodiki əsaslarının işlənilməsi Pedaqoji Universitetin qarşısında duran əsas vəzifələrdən biridir. Prorektor qeyd edib ki, bunun üçün kadr potensialının inkişafı, institusional akkreditasiya əsasında idarəetmədə keyfiyyət təminatın artırılması mühüm amillərdir. Sosial və humanitar məsələlər üzrə prorektor professor Fikrət Rzayev vurğulayıb ki, keyfiyyətli kadr hazırlığında digər önəmli məsələ qəbul planlarının hazırlanması işinin optimallaşdırılmasıdır ki, universitet olaraq bu istiqamətdə müəyyən işlər icra olunur. Professor diqqətə çatdırıb ki, ölkədə 21 universitetdə pedaqoji kadr hazırlığı aparılır. Bunlar içərisində istər elmi-pedaqoji, istərsə də tələbə kontingenti baxımından Pedaqoji Universitet müəllim hazırlığında aparıcı yer tutur və bu da universitetin önündə böyük vəzifələr və hədəflər qoyur. Daha sonra Fizikanın tədrisi texnologiyası kafedrasının professoru İsa İsmayılov, Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müdiri professor Müseyib İlyasov, Ümumi tarix və tarixin tədrisi texnlolgiyası kafedrasının professoru Mübariz Əmirov, İbtidai təhsilin pedaqogikası kafedrasının professoru Fərrux Rüstəmov və Kompüter elmləri kafedrasının professoru Əbülfət Pələngov fənlərin tədrisinin müxtəlif məsələlərinə dair məruzələrlə çıxış ediblər.

## BELÇİKAYA İŞGÜZAR SƏFƏR

12-17 dekabr tarixlərində Belçika Krallığının paytaxtı Brüssel şəhərində Bakı Biznes Universitetinin (BBU) koordinatorluğu və Avropa Komissiyasının (AK) maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycanda Rektorlar Konfransının yaradılması (ECAR)" adlı Erasmus+ layihəsinin növbəti görüşü keçirilib. Tədbirin məqsədi ali təhsilin beynəlmiləlləşdirilməsində potensialın gücləndirilməsidir.

İlk görüş European Foundation for Management Development Global (EFMD Global) qurumunda təşkil olunmuşdur. Görüşdə EFMD Global və digər Avropa partnyorları tərəfindən keyfiyyət təminatı və beynəlmiləlləşmə, tədqiqatların və tədrisin beynəlmiləlləşməsi, beynəlmiləlləşmə strategiyalarının inkişaf etdirilməsi, beynəlxalq layihələr, Alman Akademik Mübadilə Xidməti kimi olduqca mühüm mövzularda seminar və təqdimatlar keçirilmişdir. Həmçinin, tədbir iştirakçılarının AK-nın Avropa Mədəniyyət, Təhsil və Audiovizual Agentliyi ilə Erasmus+ layihələri üzrə işgüzar görüşü keçirilmişdir. Görüşün davamında layihə məsləhətçisi Lucia Giannini ali təhsildə potensialın gücləndirilməsi, AK-nın siyasət üzrə mütəxəssisi Kinga



Bereza-Husak isə Erasmus+ layihələrinin Azərbaycan üçün əhəmiyyəti, nəzərdə tutulan fəaliyyətlər haqqında iştirakçıları məlumatlandırıb. Layihə çərçivəsində Azərbaycan Milli Erasmus+ Ofisinin dəstəyi ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və layihə konsorsiumunun üzvü olan Azərbaycanın 17 ali təhsil müəssisəsindən 50-ə yaxın nümayəndə heyəti Belçikaya səfər etmişdir. ADPU-nu səfərdə tədris işləri üzrə prorektor dosent Eldar Aslanov, rektorun müşaviri Ümid Mehdiyev, ümumi işlər üzrə prorektor Tural Cəlilov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Günay Məhərrəmova təmsil ediblər.

## ELMİ SEMİNAR: ARSAK: TARİX VƏ MÜASİRLİK



Dekabrın 19-da Beynəlxalq Qarabağ Forumunun təşəbbüsü, ADPU-nun Tarix və coğrafiya fakültəsinin Azərbaycan tarixi kafedrasının təşkilatçılığı ilə "Arsak: tarix və müasirlik" mövzusunda elmi seminar keçirilib. Seminarın moderatoru Azərbaycan tarixi kafedrasının müdiri dosent Naibə Əhmədova mövzunun aktuallığını, araşdırılmasının vacibliyini, yeni tədqiqatların aparılmasına ehtiyac olduğunu qeyd etdi. Çıxış edən Tarix və coğrafiya fakültəsinin dekanı dosent Asif Axundov elmi seminarların, konfransların keçirilməsinin vacibliyini vurğulayaraq, seminarın işinə uğurlar arzuladı. Beynəlxalq Qarabağ Forumunun koordinatoru, iqtisadiyyat üzrə fəlsəfə doktoru Şamil Mehdi çıxışında məlumat verdi ki, 2021-ci ilin dekabr ayında "Arsak: tarix və müasirlik" adlı beynəlxalq elmi konfrans keçirilib və onun materialları Azərbaycan, ingilis və rus dillərində nəşr olunub. Forumun nümayəndəsi bildirib ki, növbəti konfransın 2023-cü ildə keçirilməsi ilə bağlı qərar qəbul olunub. Spikerlərdən dosent Firdovsiyyə Əhmədova Türkiyə, Rusiya, Ukrayna və digər ölkələrin alimləri ilə birgə aktual mövzuların işlənməsi, elmi saxtakarlıqların ifşası, tarixi həqiqətlərin üzə çıxarılması işinin davamlı aparılmasının vacibliyini vurğuladı. Dosent Akif Nağı çıxışında yüz illər boyu ermənilərin həyata keçirdikləri saxtakarlıqların kökünün araşdırılması, onların yalanlarının səbəbləri və gələcək mənfur niyyətləri barədə faktları açıb göstərməklə ermənilərin "alimliyininin" ifşasının mühümlüyünü qeyd etdi: "Bunun üçün isə Azərbaycan tarixinə yeni elmi yanaşma, yeni baxış tələb olunur. Müasir imkanlardan, – elektron kitabxanalar, arxiv materialları, qədim xəritələr, müxtəlif nəşrlərdən effektiv istifadə olunmalı, müxtəlif dillərdə informasiya resursları yaradılmalıdır." Daha sonra BDU-nun Tarix fakültəsinin Arxeologiya və etnoqrafiya kafedrasının müdiri dosent Kərəm Məmmədov "Qafqazın qədim tarixi ilə bağlı erməni saxtakarlığı", türkoloq Bəxtiyar Tuncay "Albanların dili və ədəbiyyatı", AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi, gənc tədqiqatçı Leyla Babazadə "Albaniyanın siyasi tarixinin əsas problemləri" mövzusunda məruzə etdilər. Tarix üzrə fəlsəfə doktoru Ramin Əlizadə "Alban Ərsaklar sülaləsinin mənşəyi və Qarabağın qədim əhalisi" adlı məruzəsində dedi: "Birinci Dünya müharibəsi illərində Böyük Britaniyanın Xuzistanda baş konsulu olan P.Sayks "Persiya tarixi" kitabında Parfiya dövlətini yaradan Ərsak sülaləsinin Turan tayfasına mənsub olduğunu və parn adlandığını, həmçinin dahelər kimi tanınan şimal köçərilərinin bir qolu olduğunu qeyd edir. O, e.ə. I minillikdə Yaxın Şərqdə siyasi güclərin ardıcıl olaraq hakimiyyət sürmələrinə nəzər salaraq yazır: "Samilər Babil və Aşşur imperiyalarında Midiya və Persiya arilləri güclənənə qədər öz hakimiyyətlərini qoruyub saxlamışdılar. III əsrdə arilər yenidən üstün mövqeyə yiyələnənə qədər isə beş əsr boyunca bir Turan irqinin hakimiyyəti altında idilər". Burada P.Sayks Turan irqi dedikdə Parfiyanın Ərsaklar sülaləsini nəzərdə tuturdu".

## FAKÜLTƏLƏRƏ YENİ DEKANLAR SEÇİLİB

19-23 dekabr tarixlərində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Fizika, Kimya və biologiya, İncəsənət və fiziki tərbiyə və İbtidai təhsil fakültələrində səlahiyyət müddəti başa çatmış dekanların yerinə yeni seçkilər keçirilib. Seçkilərlə bağlı prosedura uyğun olaraq ADPU-nun tədris işləri üzrə prorektoru dosent Eldar Aslanovun sədrliyi ilə hər bir fakültədə fakültələrin ümumi iclasları keçirilib. Ümumi iclaslarda dekanlığa namizədlərin platformaları dinlənildikdən sonra, müzakirələr aparılıb. Daha sonra gizli səsvermələrin təşkili üçün Hesablayıcı Komissiyalar formalaşdırılıb. Keçirilən gizli səsvermələrin nəticələrinə əsasən, Fizika fakültəsində sonuncu dekan dosent Arzu Daşdəmirov, Kimya və biologiya fakültəsində Ümumi kimya və kimyanın tədrisi texnologiyası kafedrasının müdiri k.ü.f.d., dosent Reyhan Ağayeva, İncəsənət və fiziki tərbiyə fakültəsində Fiziki tərbiyə və çağırışaqədərki hazırlığın tədrisi texnologiyası kafedrasının müdiri s.ü.f.d. Anar Fərmayılov, İbtidai təhsil




Arzu Daşdəmirov



Reyhan Ağayeva



Qızxanım Qəhrəmanova



Anar Fərmayılov

fakültəsinə isə Pedaqoji psixologiya kafedrasının müdiri psix.e.d., professor Qızxanım Qəhrəmanova növbəti 5 il üçün dekan vəzifəsinə seçiliblər. Qeyd edək ki, yeni seçilən dekanlar öz platformalarına uyğun olaraq, qarşıdakı 5 illik üçün fakültənin fəaliyyət strategiyasını hazırlayaraq həyata keçirəcəklər.

## "MEH"İN 5 İLİ



Dekabrın 20-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Filologiya fakültəsində fəaliyyət göstərən Meh ədəbi dərnəyinin 5 illik hesabat tədbiri keçirilib. Tədbirdə universitet rəhbərliyi, müvafiq strukturların rəhbərləri, habelə tanınmış şair, ədəbiyyatşünas alim professor Vüqar Əhməd, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru professor Sevinc Əliyeva iştirak edib. Əvvəlcə fakültənin foyesində Meh ədəbi dərnəyinin üzvləri tərəfindən canlandırılan klassik və müasir Azərbaycan şairlərinin obrazları qonaqları salamlayıb, milli adət-ənənələrimizi əks etdirən kompazisiyaya tamaşa edilib. Daha sonra ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, Filologiya fakültəsinin dekanı vəzifəsini icra edən professor Mahirə Hüseynova qonaqları ədəbi dərnəyin fəaliyyətini əks etdirən stendlə tanış edib. Tədbirdə açılış nitqi ilə çıxış edən ADPU-nun Ədəbiyyat kafedrasının müəllimi dosent Qüdrət Umudov qeyd edib ki, 2018-ci ildə fakültə dekanı prof. Mahirə Hüseynovanın təşəbbüsü ilə yaradılan Meh ədəbi dərnəyi fakültədə tələbə həyatının canlanmasına səbəb oldu. Dos. Q.Umudov bildirib ki, nəsr, poeziya və ədəbi tənqid bölmələri ilə fəaliyyətə başlayan ədəbi dərnəyin tərkibində bu gün əlavə olaraq musiqi, rəsm, rəqs, teatr və aktyorluq və bədii qiraət bölmələri də fəaliyyət göstərir: "Meh ədəbi dərnəyi bu müddət ərzində çoxsaylı Respublika və beynəlxalq tədbirlərdə uğurla iştirak edib, ADPU-nun 100 illik yubiley tədbirinin bədii hissəsi, tanınmış ədəbiyyat və mədəniyyət xadimlərinin yaradıcılıq və yubiley tədbirlərini təşkil edib, fəaliyyəti mətbuatda geniş işıqlandırılıb." Meh ədəbi dərnəyinin fəaliyyətini əks etdirən videoçarxın nümayişindən sonra dərnək üzvlərinin təqdimatında ədəbi-bədii kompozisiya təqdim olunub, eləcə də, müxtəlif əsərlərdən parçalar səhnələşdirilib, şeirlər, mahnılar səsləndirilib. M.Ə.Sabirin satiraları, Ə.Haqverdiyevin "Qoca tarzən", Hüseyn Cavidin "Ananın dramı" əsərləri əsasında hazırlanmış səhnələr böyük coşğu ilə qarşılanıb. Bədii hissədə tanınmış şairə Mahirə Nağıqızının "Qəlbimdəki məzar", "Sənli günlərim", "Xəyalımda", "Ağlama" kimi şeirləri səsləndirilib, Əməkdar artist Elnur Zeynalov, Gülzar Fərəcova, Almaxanım Əhmədli kimi tanınmış incəsənət nümayəndələri, fakültənin məzunu aşıq Ceyhun Qurbansoy və digərləri tərəfindən şeirlərə bəstələnən mahnılar, eləcə də xalq mahnıları, aşıq havaları muğamlar ifa olunub. Dərnəyin üzvləri Azərbaycan, ingilis və fransız dillərində xalq mahnısı "Sarı gəlin"i ifa ediblər. Sonda professor Mahirə Hüseynova tərəfindən Meh ədəbi dərnəyinin sədri Raman İsmayılov və üzvlər məhsuldar fəaliyyətə görə Fəxri fərmanla təltif olunub.

Tiraj - 500
Şəhadətnamə - № 191

# GƏNC MÜƏLLİM QƏZETİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

## HÜSEYN CAVİD YARADICILIĞINA HƏSR OLUNAN ƏDƏBİ-BƏDİİ TƏDBİR



Dekabrın 27-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavidin 140 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamını rəhbər tutaraq ədibin yaradıcılığına həsr olunmuş "Turana qılıncdan daha kəskin ulu qüvvət, Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət" adlı ədəbi-bədii tədbir keçirilmişdir. Tədbirdə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov, başçının müavini Təravət Muradova, ADPU-nun rektoru prof. Cəfər Cəfərov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru prof. Ceyran Mahmudova, YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev və başqaları iştirak etmişdir. Azərbaycan Respublikasının xalq artisti Məmməd Səfanın rəhbərliyi ilə tələbələrin hazırladıqları Hüseyn Cavid yaradıcılığına həsr olunmuş kompozisiya Cavid yaradıcılığını hərtərəfli əhatə edirdi. Kollecin foyesində ədibin yaradıcılığına həsr olunmuş səyyar sərgi və kitab sərgisi tədbirə gələn tamaşaçıların diqqətini cəlb edib. Tədbirin sonunda Yasamal RİH başçısı Elşad Həsənov, ADPU-nun rektoru prof. Cəfər Cəfərov çıxış edərək tədbir iştirakçılarına öz təşəkkürünü bildirmişdir.

## ADPU-NUN PROREKTORU ECAR LAYİHƏSİNİN KOMİTƏ SƏDRİ VƏZİFƏSİNƏ SEÇİLİB



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Tədris işləri üzrə prorektoru dosent Eldar Aslanov Azərbaycan Texniki Universitetində "Azərbaycanda Rektorlar Konfransının yaradılması" (ECAR) adlı Erasmus+ layihəsi çərçivəsində Tədris işləri və keyfiyyət təminatı üzrə komitənin ilk iclasında iştirak edib.

Baş tutan iclasda komitənin funksiyaları, komitəyə sədrliyə namizədə dair tələblər, idarə heyəti və sədrin seçim qaydaları tərəfdaşlara təqdim edilib və onların rəyləri əsasında müvafiq düzəlişlər edilib. İdarə heyətinin sədri vəzifəsini tutmaq üçün namizədliyi irəli sürülən 16 namizəd arasından 68.8% səs çoxluğu ilə ADPU-nun tədris işləri üzrə prorektoru dosent Eldar Aslanov idarə heyətinin sədri seçilib. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tədris işləri üzrə prorektoru Nigar Rüstəmova və Odlar Yurdu Universitetinin tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Qabil Qafarov səs çoxluğu ilə Tədris işləri və keyfiyyətin təminatı üzrə komitənin sədr müavini seçilib. Qeyd edək ki, layihənin məqsədi milli inkişaf strategiyalarına uyğun olaraq universitetlər birliyi yaratmaq və bu vasitə ilə universitetlərarası milli şəbəkə və əməkdaşlığı inkişaf etdirməkdir.

## "ŞUŞA - 270" ADLI TƏDBİR



Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Magistratura və doktorantura şöbəsi, Tarix və coğrafiya fakültəsi və Xarici Dillər Mərkəzinin dosenti Qəribə Məmmədovanın birgə təşkilatçılığı ilə "Şuşa - 270" adlı tədbir keçirilib. Tədbirdə şöbədə dərs aparan müəllimlər, şöbənin və fakültənin əməkdaşları, müxtəlif ixtisaslar üzrə magistrant və tələbələr iştirak ediblər. Əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Magistratura və doktorantura şöbəsinin müdiri siyasi elmlər üzrə fəlsəfə doktoru Rəşad Sadıqov giriş sözü ilə tədbiri açaraq, belə tədbirlərin yeni ilin gəlişi və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində möhtəşəm yubileylərə həsr olunmasının ənənəyə çevrildiyini diqqətə çatdırıb. Sonra Yusif Vəzir Çəmənzəminlinin nəvəsi, ADPU-nun professoru Leyla Vəzirova və ingilis dili müəllimi, I Qarabağ müharibəsində atası, II Qarabağ müharibəsində isə həyat yoldaşı şəhid olan Nəzirə Məmmədova çıxış ediblər. Tədbirdə Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası və metodologiyası ixtisası üzrə I tədris ili magistrantları, Təhsildə sosial-psixoloji xidmət ixtisasının II tədris ili magistrantları, Tarix və coğrafiya fakültəsinin tələbələri əhatəli ssenari üzrə Azərbaycan və ingilis dillərində Şuşa şəhərinin, Qarabağın tarixi, mədəniyyəti, tarixi şəxsiyyətləri haqqında çıxışlar edib, slaydlar, vidoçarxlar nümayiş etdiriblər. Magistrant və tələbələrin ifasında vətənə həsr olunmuş şeir və mahnılar səsləndirilib, Hüseyn Cavid və Əhməd Cavadın əsərlərindən parçalar söylənilib, Şuşa haqqında maraqlı faktlar deyilib. Tədbir ərzində yaradıcı tələbələr Şuşaya həsr olunmuş rəsmlər, əl işləri hazırlayıblar. Sonda tədbirin təşkilatçısı və ssenari müəllifi fil.ü.f.d., dosent Qəribə Məmmədova çıxış edib. O, yaradılan şəraitə görə universitet rəhbərliyinə təşkilatçılar adından təşəkkürünü bildirib, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə hər kəsi təbrik edərək yaxın gələcəkdə növbəti tədbirlərdə görüşməyi arzulayıb. Tədbirin sonunda şəhidin övladlarına, çıxış edənlərə xüsusi hədiyyələr təqdim olunub və xatirə şəkli çəkilib.

## MALİYYƏ ŞÖBƏSİ



Pedaqoji Universitet yarandığı gündən mühasibatlıq şöbəsi fəaliyyət göstərir. 1921- 1927-ci illərdə mühasibatlıq institutla yanaşı, həm də A.Şaiq "Nümunə məktəbi"nin və pansionatın (yataqxananın) təsərrüfat fəaliyyətinin mühasibat uçotunu aparmışdır. Son illərdə struktur dəyişikliyi ilə əlaqədar olaraq mühasibatlıq şöbəsinin funksiyası genişləndirilmiş və o, Maliyyə şöbəsi adlandırılmışdır.

Maliyyə şöbəsi:

- maliyyə vəsaitinin təyinatı üzrə və səmərəli istifadə edilməsini və xərclərin uçotunu, xərclər smetalarının icrasını, müəssisələrarası hesablaşmaları, pul vəsaitlərinin və maddi qiymətlilərin saxlanmasını, müvafiq qanunvericiliyə uyğun olaraq əsas vəsaitlərin, qeyri-maddi aktivlərin və dövriyyə vəsaitlərinin inventarizasiyasını həyata keçirir, təyin olunmuş komissiy, köhnəlmiş və yararsız hala düşmüş inventarları yoxlayıb silinməsini təmin edir;
- universitetin işçilərinə əmək haqlarının və digər ödəmələrin (o cümlədən, ezamiyyə xərclərinin) hesablanmasını və vaxtında ödənilməsini, habelə əmək haqlarından və digər ödəmələrdən vergi və tutulmaların hesablanaraq vaxtında aidiyyəti üzrə ödənilməsini və öhdəliklərin icrasına və digər maliyyə-təsərrüfat faktlarının düzgünlüyünə daimi nəzarəti təmin edir.

Maliyyə şöbəsi həm də mühasibatlıq sənədlərinin çoxaldılması, tərtib edilməsi və arxivə təhvil verilməsinin müəyyən edilmiş qaydada həyata keçirilməsinə nəzarət edir. Şöbə əmək haqqının uçotu, ödənişli təhsilin və təqaüdün uçotu, planlaşdırma, maliyyə bölməsi və mal-material bölmələrindən ibarətdir. Uzun illər universitetin maliyyə şöbəsinə Nəsrəddin Musayev rəhbərlik etmişdir. 2017-ci ildən şöbəyə baş mühasib Mətanət Quliyeva rəhbərlik edir.

Hazırda şöbədə baş mühasib Mətanət Quliyeva, baş mühasibin müavini Səadət Yelmarlı, aparıcı mühasiblər İradə Cəlilova, Fidan Nağıyeva, Pərvanə Osmanova, Firuzə Rəcəbova, Elnur Rzayev, Rəna Rzayeva, Maya Ocaqverdiyeva, Toğrul Babayev, aparıcı iqtisadçı Rəna Səfərova, mühasiblər Təranə Əliyeva, Xalidə Hüseynli, Namiq Hüseynov, Luiza Qurbanova, Bəsti Sadıqova, Arzu Mehtiyeva və Əminə Ələkbərova çalışır.

***Məlumatlar "Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi (1921-2021). II cild" kitabına əsaslanaraq hazırlanıb.***

## BAŞSAĞLIĞI



**Professor Nadir Abdullayev**



**Professor Vilayət Əliyev**



**Dosent Vəsilə Bayramova**

**Azərbaycan Dövlət Pedaqoji Universi- tetinin rəhbərliyi, professor-müəllim heyəti, tələbələri və əməkdaşları mərhum pedaqoqlarımıza Allahdan rəhmət diləyir, yaxınlarına səbr arzulayır!**

**Onların xatirəsi qəlbimizdə daim yaşayacaq!**

**Allah rəhmət eləsin !**


## Redaksiya heyəti



**Professor Cəfər Cəfərov**
Müşahidə şurasının sədri



**Dosent Eldar Aslanov**
Müşahidə şurasının üzvü



**Professor Asəf Zamanov**
Müşahidə Şurasının üzvü



**Professor Fikrət Rzayev**
Müşahidə Şurasının üzvü



**Professor Məhirə Hüseynova**
Müşahidə Şurasının üzvü



**Könül Pirverdiyeva**
Müşahidə Şurasının üzvü



**Tural Cəlilov**
Müşahidə Şurasının üzvü



**Cavid Hüseynov**
Redaktor



**Taleh Mirzəyev**
Redaktor



**Asim İbrahimov**
Redaktor



**Elvin Vahidov**
Dizayner

*Fotolar Nurlan Səmədovundur. Qəzet "Gənc Müəllim" qəzetinin redaksiyasında yığılıb, səhifələnib və "Azərbaycan Nəşriyyatı" MMC-də çap olunub. Sifariş №: 115*

Ünvan: Bakı şəhəri, Səbail rayonu, Ü.Hacıbəyli küçəsi, 68 / Əlaqə: +994 50 868 08 33 / Qəzetdə qeyd edilən faktlara görə redaksiya məsuliyyət daşımır.